Əmanətlərin
Sığortalanması Fondu

# ASAN PAY

TƏLİMAT

Əmanətlərin Sığortalanması Fondu ləğv prosesində olan bankların kredit yığımlarının mərkəzləşdirilmiş qaydada təşkilini, yığımların operativliyini və müştərilərin rahatlığının təmin edilməsi məqsədi ilə Fondun daxili informasiya sisteminin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "İNNOVASİYALAR MƏRKƏZİ" MMC in "ASAN ödəniş" sistemi portalına inteqrasiyasını təmin etmişdir. Ləğv prosesində olan bankların müştərilərinə kredit borclarını "ASAN ödəniş" sistemi vastəsi ilə "ASAN ödəniş" terminallarında nağd formada və asanpay.az portalı vasitəsi ilə nağdsız qaydada odəmə imkanları yaradılmışdır.

Onlayn ödəmə imkandan yararlanmq üçün ləğv prosesində olan bankların krediti olan müştəriləri www.asanpay.az saytından və ya Fondun rəsmi www.adif.az saytdakı "Kreditlərin online ödənişi" səhifəsinə daxil olmaqla "ASAN ödəniş" sisteminə keçid ala bilərlər.




Daha sonra "KREDİT/LİZİNQ" bölməsindən Əmanətlərin Sığortalanması Fondu bölməsinə daxil olmaq lazımdır.




Sonra ödəyici ardıcıl olaraq şəxsiyyət vəsiqəsinin 7 rəqəmli FİN kodunu və 6 rəqəmli müştəri kodunu daxil edərək "Axtar" düyməsini basmaqla növbəti mərhələyə keçid edir.




FİN+müştəri kodu" vasitəsitəsi ilə avtomatik olaraq ödəyicinin adı,soyadı, atasının adı, ödənişin təyinatını , Fin kodu şəkildə qeyd olunmuş 7 simvol) vəsaiti alan bankın adını və borcun məbləğini qeyd edir.



Ödəyici ödəyəcəyi məbləği daxil etməklə "Davam et" düyməsini basır.




Daha sonra açılan pəncərədə kartın növünü, nömrəsini, istifadə müddətinin bitmə tarixini, imza panelikdəki son 3 rəqəmli kodu daxil etdikdən sonra "Təsdiqlə" düyməsini basıb növbəti səhifəyə keçid alır.



Bundan sonda isə əməliyyatın başa çatdığını təstiqləyən pəncərə açılır.

